Xan Arazın sahilində



GƏLMİŞƏM

Yenə coşdu ürəyimin telləri,
Əziz dostlar, mən tüğyana gəlmişəm.
Neçə vaxtdır görmür məni bu yerlər,
Araz üstə mən seyrana gəlmişəm.

Ah, nə deyim, nə söyləyim sizə mən,
Gözüm dolur, söz deyəndə ürəkdən.
Bu torpaqda kəsdiyim duz-çörəkdən,
Qüvvət alıb, mən cövlana gəlmişəm.

Vurulduqca bu sevimli yurda mən,
Rübabımı kökləmişəm burda mən.
Mənə şeİr çələngini bəxş edən,
Yaraşıqlı bir məkana gəlmişəm.

Ovçu kimi mən dolana-dolana,
Qalxıb Araz qırağından bu yana.
Baba yurdum gözəl Nəqşi-cahana, –
Ana yurdum Naxçıvana gəlmişəm.

NAXÇIVANIM

Çöllərindən keçən mənəm,
Söz qoşmamış keçəmmənəm,
Sularından içən mənəm,
Mənim barlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.
Qızların var, xumar gözlü,

Mah camalli, şirin sözlü.
Göy dərəli, məxmər duzlu,
Başı qarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Gör nə çalır könül simi:
– Şerə verdim mən eşqimi.
Mirzə Cəlil, Bəhruz kimi
Sənətkarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Zirvələrin dənər qarlı,
Şimşəklərin od çaxarlı.
Ey axarlı, ey baxarlı,
Ey gülzarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Mən neylərəm sənsiz görən?
Doymaz səndə ömür sürən.
Ey İslama könül verən
Düz ilqarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

"QIZLAR BULAĞI"

Dan sökülür,
Nur tökülür.
Üfüqlərin dodağından.
Gənclər durur,
Su doldurur
Bizim "Qızlar bulağı"ndan ...

Gülür lalə,
Gur şəlalə
Qayalardan axıb gedir,

Daş cığırdan
Bir gənc oğlan
Öz yarına baxıb gedir.

Bu duzlu qız,
Ulduzlu qız
Şərəfli bir qəhrəmandır.
Qəlbən sevir,
Könül verib
O oğlana çox zamandır.
Addım atır,
Oğlan çatır
Tarladakı dəstəsinə.
Çatmaq üçün
İşdə bu gün
Bax,bu boyu bəstəsinə.

Sığal vurub,
Su doldurub
Səhəngini qız alınca,
Bir də baxır,
Qəlbi axır

O oğlanın arxasınca...
Ötür anlar...
Bu cavanlar
Kətmən vurur yorulmadan.
Gün saralır,
Qaş qaralır,
Hamı dönür tarlalardan...

Bulaq daşır,
Pıçıldaşır
İşdən dönən sevgililər:
– "Tez çıx işə,
Ay Bənövşə!
Bax, yubanma sabah səhər"!

Uzanır yol...
– "Arxayın ol", –
Deyə gedir otağına.
Ay yüksəlir,
Seyrə gəlir
Bizim "Qızlar bulağı"na...

"NAXÇIVAN YADİGARI"

"Naxçıvan yadigarı" adlı mənzərə albomunun müəllifi rəssam
Bəhruz Kəngərliyə

I

Bir şeir tablosu yaradım deyə,
Düzdə gülə baxdım, döşdə laləyə.
Durna göyü gəzdi, qartal zirvəni,
Duman göy düzlərin odlu yelkəni.
Dağdan uçqun qopdu, dindi dərələr,
Hürküb, yuxusundan oyandı səhər.
Kəklik daşa səkdı, qırqovul kola,
Dindi qoşalüləm, yüyürdü tula...
Yarğandan quş qalxdı, çaylaqdan sona,
Çöllərin qurd-quşu yatdı yovşana.
Ovçu hənirtisi, çöl sükunəti
Yaratdı qəlbimdə bu şeriyyəti.
Çatıb buz bulağa, ayaq saxladım.
Könül dəftərimi mən varaqladım.
Qayalar dil açıb dedi: yazma gəl,
Bu sözlər heç kəsin gəlməz karına;
Bəhruz hüsnümüzü səndən də əvvəl
Çəkmişdi "Naxçıvan yadigarı"na.

II

"Pətəkli quzeydən" aşağı düşdüm,
Yosunlu daşlardan yerə sürüşdüm.
"Sübhün açılması", bir "Meşə yolu",

Dağdağan ağacı, qarağat kolu,
Körpə qələmələr, salxım söyüdlər
Başımın üstündə əsdi sərasər...
Durub seyr elədim mən bir az çayı,
Ax, ey "Araz" çayı, ey "Araz" çayı!

O üzü, bu üzü yastı təpəlim,
Ey almaz dalğalım, gümüş ləpəlim,
Ey iki qardaşın dərdi, qubarı,
Sizin hüsnünüzü yaradım barı...
Bütün misralarda güllər öpüşsün.
Gördüyüm lövhələr şerimə düşsün.
Səs gəldi: şairim, inadı burax,
Əbəs mizrab vurma könül tarına;
Bəhruz hüsnümüzü səndən də qabaq,
Çəkmişdir "Naxçıvan yadigarı"na.

III

Keçib düz "Atabəy məqbərəsi"ndən.
"Əlyabad yolu"yla addımladım mən.
"Edilğa gölü"nə vuruldum bu an,
"Ararat" boylandı dağlar dalından.
"Təndir çeşməsi"nin suyu "gəl" – dedi,
"Mənəm ən içməli, ən gözəl" – dedi.
"Qoyun sürüləri" keçdi önümdən
"Axşam qürubu"nu seyr elədim mən.
Bir "Toy" şənliyinə düşdü güzarım.
Dedim, qoy məclisə salam aparım.
Gəlib bardaş qurub, "mübarək" – dedim,
Bu gün sizdən yazam mən gərək – dedim.
Toyun ağbirçəyi çıxdı qarşıma,
Xınalı əlini çəkdi başıma:
– Yaxşı ki, gəzirsən Vətən mülkünü,
Oğlum, əhsən sənin düz ilqarına.
Ancaq Bəhruz elin toy-düyününü
Çəkmişdir "Naxçıvan yadigarı"na.

IV

Fikirlər içində ayağa qalxdım,
Baxdım, hər zirvəyə, min kərə baxdım.
Dindi qoşa vələs başımın üstə,

Göydən durna keçdi yenə bir dəstə...
Dedim: – Araz üstdən uçan durnalar,
Məndən qardaşıma salamlar apar!
Fikrimi cəlb etdi "Bulud parçası", –
Onu da yaratmış Bəhruz fırçası.
Bu böyük rəssamın məzarına mən
Bir əklil apardım dağ güllərindən.
Sənətin əcazkar ülviyyətinə
Bir daha, bir daha vuruldum yenə.
Bu vaxt ürəyimdən qopdu bir nida:
– Şair, böyük sənət qalır dünyada!
Hər yarpaq başına tutduqca çətir,
Vurul Vurğun kimi öz diyarına;
Bəhruz Kəngərlitək lövhələr gətir
Sən də öz "Naxçıvan yadigarına".

GÖRÜŞ YERİ

Dalğalı Arazın göy yaxasında
Durur əzəmətli şəhərim mənim.
Onun hər evində, hər obasında
Kaş ki, səslənəydi sözlərim mənim.

Axı neçə vaxtdır bu doğma diyar
Baxır, mənə baxır, gözləri dolğun.
Deyir: – Yaz, qoynumda iki küçə var,
Birisi "Puşkindir", birisi "Vurğun".

Bu səs qanadında gəzdirir məni,
Bu söz ürəyindən qopur hər kəsin:
– Naxçıvan! Ey şerin, sözün vətəni,
Çağır, ulduzlar da səcdəyə gəlsin!

Bu iki şairə, bu iki ada,
Könlümü vermişəm körpəliyimdən.
Şeir məftunuyam qoca dünyada,
Onları şeirlə səsləyirəm mən.

Vurğunum, Puşkindən söz açıb bizə,
Demişdin: "Batmasın ulduzum-ayım.
Sənət vadisində gəlsin üz-üzə,
Sənin Tatyananla mənim Humayım".

Onunçun səcdənə mən enirəm ki,
Nisgilim gül açıb yerdə, ustadım!
Bir də ona görə sevinirəm ki,
"Sənin tələbən" çağrılır adım.

"Puşkin küçəsi"ylə Tatyana gedir,
Sağında-solunda ayna səkilər.
"Vurğun küçəsi"ni Humay seyr edir,
Gülür gözlərində qızıl bir səhər.

Bu iki gözələ, bu iki qıza,
Bulaq salam verir, çay salam verir.
Bu qoşa ülkərə, qoşa ulduza,
Günəş salam verir, Ay salam verir.

Gözündə Puşkinin mücəssəməsi,
Yeriyir Tatyana əlində çələng.
Dilində Vurğunun həyat nəğməsi,
Humay addımlayır gülümsəyərək.

Mat qoyub hüsnünə bizim diyarı,
Onlar çiçək kimi öpüşəcəklər.
Puşkinlə Vurğunun şeir dildarı,
Sənət vadisində görüşəcəklər.

Bu iki sənətkar əzəldən bəri,
Mənim ürəyimdir, mənim canımdır.
Bir də xoşbəxtəm ki, o görüş yeri –
Bu sənət vadisi Naxçıvanımdır!

GİLAN ŞƏHƏRİ HAQQINDA BALLADA

Gör nə deyir qərinələr,
– Viranədir Gilan şəhər!..
Dərəyə en, təpəyə qalx,
Xərabələr qalaq-qalaq...
Bura saldım mən meylimi,
Gilan dağı gileylimi?..
De, o niyə pürvüqardır,
Bəlkə bizə sözü vardır?
Hər kərpicdə yazı durur,
Çoxu gedib, azı durur.
Seyr edirəm dörd yanımı,
Bu, zəlzələ qurbanımı?
Yoxsa, qanlı cəngavərlər
Burdan keçmiş uzun illər?
İndi də çox səyyah gəlir,
Dağı dəlir, daşı dəlir.
Torpaq olmuş bu şəhərin
Yaşı qədim, sirri dərin...
Maşın keçir, torpaq batır,
Burda neçə zəka yatır.
Yer altdadır nələr, nələr,
Qalın-qalın salnamələr.
Yatır milyon ildən bəri,
Min memarın şah əsəri.
Hər küpçədə, hər saxsıda
Neçə tarix düşür yada.
Vaxt olub ki, dúyur ürək
Düylün, Vənənd bağları tək
Bu yerlər də gözəl olub,
Bulaqları süzər olub.
İndi təkcə qalan çaydır,
Gilan çaydır, Gilan çaydır...
Yeriyirəm aram-aram,
Ürəyimdə yoxdur yaram.

Duyuram ki, gülən səhər
Öz yurdumun səhəridir.
Duyuram ki, Gilan şəhər
Azərilər şəhəridir...

"GƏLİN DAŞ"

Qayaların zirvəsində duran qız,
Camalına pərvanədir ay-ulduz.
Yaranmısan danışasan, güləsən.
Niyə məlul dayanmısan belə sən?
Qara qaşın bu dağların qaşımı?
"Gərdəni" çay gözlərinin yaşımı?
Ucadasan, yaxın gələ bilmirəm,
Sirlərini, vallah, bilə bilmirəm.
Özün daş, heykəlin daş,
"Gəlin daş", ay "Gəlin daş!"
Ətəklərin ağ çadırlı obadır,
Unus kəndi sirlərinə yuvadır.
Daş olsan da, dirilərdən dirisən,
Cəviz yığan gəlinlərin birisən.
Buz çeşmələr gözlərinə dolaydı,
"Zəris güney" seyrangahın olaydı,
Tərpənmirsən, yerimirsən barı sən,
Heç olmasa boylan bizə sarı sən.
Ayağın daş, əlin daş,
"Gəlin daş", ay "Gəlin daş!"
Tarixlərin dərdimi var, sinəndə,
Danış, dünya dağılmaz ki, dinəndə!
Ayağından çaylardımı çağlayan,
Qucağında körpəmidir ağlayan?
Nədir, nədir üzündəki bu kədər?
Qorxma, yarın döyüşlərdən sağ gələr,
Əfsanəni soruşuram gecədən,
Taleyini necə yazım, necə mən?
Zirvən daş, təməlin daş,
"Gəlin daş", ay "Gəlin daş!"

QONAĞIYAM

Cəhridən yuxarı, dağdan aşağı,
"Payızçay" bağların gümüş qurşağı,
Tüstüdən çatılır göy qovuşağı,
Ocaq qonağıyam, göz qonağıyam.

Nə deyim, nə deyim, mən oxucuma;
Xoşdur ovçu ata, kola ov cuma.
Kəhriz buz suyunu süzür ovcuma –
Bilir ki, bu yerin söz qonağıyam.

Söyüdlər telini tökür üzümə,
Çiçəklər boy atır, qalxır dizimə.
Cəvizlər, əriklər baxır gözümə,
Bir dünya baxımlı göz qonağıyam.

Qələmə deyiləm, yelsiz əyiləm,
Gərək meyvə kimi şirin yeyiləm.
Mən şair İslamam, özgə deyiləm,
Payız meşəsinin öz qonağıyam.

QOŞA KƏKLİK

Ordubadın dağlarında
Bir cüt kəklik tora düşdü.
Özləri də bilmədi ki,
Hardan uçub, hara düşdü.

Onlar qızıl qönçə kimi
Öz kolundan tez dərildi.
Bir gün kiçik bir qəfəsdə
Bakıya pay göndərildi.

Gözəl olur şiş zirvələr
Boz dumandan sıyrılanda.
Qəmli olur dağ kəkliyi
Dağ yerindən ayrılanda.

Kəklik otu, çopur qaya
Harda qaldı, harda qaldı?
Ayna bulaq, yaşıl tala
Orda qaldı, orda qaldı.

Zərrin şəfəq, zümrüd yamac,
Çoban neyi, nəsə, yoxdur,
Bu dar qəfəs, bu daş otaq
Nə soyuqdur, nə soyuqdur!..

İki kəklik bir qəfəsdə,
Şəhər yeri, motor səsi.
Niyə gəlmir bəs onların
Könül açan qəhqəhəsi?!

...Dan yerinə səda düşdü,
Bir də gördüm oyanmışam.
Ordubadın gur meşəli
Dağlarında dayanmışam.

Yarpaq səsi, çiçək ətri,
Yosun iyi, xınalı daş
Əlimdəki kəkliklərə
Ruh verirdi yavaş-yavaş.

Elə bu vaxt qoşa kəklik
Daşdan-daşa səkib getdi.
Qəlbimi də dallarınca
Ovçu kimi çəkib getdi.

BATABAT BULAĞI

Bulaqların bir səmtədir axarı,
"Salvartı"nın xoş görünür baxarı,
Biçənəkdən at səyridib yuxarı,
Yalmanına yata-yata gəlmişəm,
Mərcan gözlü Batabata gəlmişəm.

"Qonaqgörməz" düşmənidir təkliyin,
Ayaqları xınalıdır kəkliyin.
Göl üstdəki güllüyün, çiçəkliyin
Xoş ətrinə bata-bata gəlmişəm,
Mərcan gözlü Batabata gəlmişəm.

Dağ cığırlı, hər tərəfim duman, çən,
Boz qayadan cüyür ürkdü qəflətən.
Tüfəngimi sinəm üstə basım mən –
Arxasınca ata-ata gəlmişəm,
Mərcan gözlü Batabata gəlmişəm.

Mehmanınam on beşdə mən, beşdə mən,
Gətirmişəm basdırmanı teştdə mən.
Neçə ocaq tüstülədib döşdə mən,
Birini də çata-çata gəlmişəm,
Mərcan gözlü Batabata gəlmişəm.

Vüqarlıdır zirvələrin, qaşların,
Üzə gülür qayaların, daşların.
Mən İslamam, öz səsimi quşların
Nəğməsinə qata-qata gəlmişəm,
Mərcan gözlü Batabata gəlmişəm.

"BADAMLI"

Badamlı kəndindən bir az kənarda,
"Qara yal" dağları deyilən yer var.
"Pətəkli quzeydə" yayda, baharda,
Başında saxlayır nübar üçün qar.

Axır "Şada çayı" dağlar dibindən,
Bir az yuxarısa sıx meşəlikdir.
Gəzirəm bu yeri qarış-qarış mən,
Nə kövşən, nə də ki, süpürgəlikdir.

Əlvan gül-çiçəklə doludur hər yan,
Bu kəklik otudur, bu isə çaşır.
Yayır öz ətrini nanə, gül, yovşan,
Arılar güllərdən-gülə daraşır...

Elə bu yerdəsə qaynayır hər an,
Elin ad verdiyi bir "Sonsuz quyu".
Narzan suyu kimi qiymətli olan,
Bizim Naxçıvanın "Badamlı suyu".

XAL-XAL MEŞƏSİ

Vayxır çeşməsinin suları bumbuz,
Buluddan ay çıxdı, taladan ulduz.
Bir az da aşağı düşdü yolumuz,
Gəldi qulağıma quşların səsi,
A Xal-xal meşəsi, Xal-xal meşəsi!

Qulaq as daşlıqda ötən kəkliyə,
Ver munis hüsnünü gül-çiçəkliyə.
Qoymaram sükunət səni təkliyə,
Gətirrəm qoynuna insan nəfəsi,
A Xal-xal meşəsi, Xal-xal meşəsi!

Mehmanın olduqca neçə əhli-hal,
Kəsilməz qoynundan nə tar, nə qaval.
Babalar adına desə də Xal-xal,
Sənsən yurdumuzun dilbər guşəsi,
A Xal-xal meşəsi, Xal-xal meşəsi!

Demirəm, uca bir dağ belindəsən,
"Aran meşəsi"sən el dilində sən.
Naxçıvan çayının sahilində sən,
Boy at, qoy İslamın gülsün nəğməsi,
A Xal-xal meşəsi, Xal-xal meşəsi!

ƏSRİN ÜRƏYİ

I

Gəldi astanadan ayaq səsləri,
hamı kiridi.
O silib alnından süzülən təri,
içəri girdi.
Fəhlə salam verib qoca cərraha,
sakitcə durdu.
Ümidlə, səbirlə susdu bir daha,
ürəyi vurdu.
Əyni ağ xalatlı cavan həkimlər.
ayağa qalxdı.
O isə üzündə, gözündə kədər,
cərraha baxdı...
Onlar baxışdılar dərdlilər kimi,
dil tərpənmədi.
Bu qoca cərrahı, qoca həkimi,
susduran nədir?
Bir cavab gözləyir səbirsiz ürək
üzüb özünü.
Cərrah çox düşündü, düşündü, gərək
deyəm düzünü...
Əyilməz olsa da ondakı vüqar,
titrədi səsi:
– Dostum, ürəyində sənin qəlpə var, –
mina qəlpəsi!
– Demə! Aman həkim, çoxaldı qəmim,
dərd məni sardı.
Demək keçən hərbin sinəmdə mənim
qəlpəsi vardı?!
Sükutun şüşəsi parçalanaraq
yerə töküldü.

Bu məğrur insanın yaşından qabaq
beli büküldü...
Xəstə düşündü ki, izləyir onu
ölüm hər saat.
Xəstə düşündü ki, gözləyir onu
son əməliyyat.

II

Xəstə fikrə getdi, ağır bir fikrə,
xəyala daldı.
Keçən döyüşləri o, birdən-birə
yadına saldı...
...Berlinə az qalıb, şığıyır tanklar,
düşmən çəkilir.
Havada zəhmli təyyarələr var,
mərmi tökülür.
Mina düşən yerlər çala-çuxurdu,
torpaq yaralı.
Özü də bilmədi nə vaxt yıxıldı.
yoldan aralı...
Arxa məntəqədə, bir ağ çadırda
kəsildi qanı.
Qəlpə tapılmadı... cərrah axırda
tikdi yaranı.

III

Gedir əməliyyat... Bir ürək üstə
min ürək yanır.
Elə bil ömrünü tərk edir xəstə,
qəlbi dayanır.
Lərzəyə gətirib bütün dünyanı
hərbin dəhşəti.
Cərrah! Ürəklə yar, düşün insanı –
bəşəriyyəti...
Cərrah! Mən yazdıqca bu misraları
əllərim əsir.
Təhlükə altından çıxaydı barı,
iyirminci əsr...
– Dünyanı atomun təhlükəsindən
hifz edən hər kəs, –
Qürurla söyləyir: anamız Vətən
məhv ola bilməz!
...Yardıqca inamla düşünür cərrah,
xoş gələcəyi,
Şəfalı əllərə gətirir pənah,
əsrin ürəyi!..

SƏMƏD GEDƏN MAŞINDA MƏN

İldırımlar vermir ara,
Dırmanırıq göy dağlara.
Maşın gedir ağır-ağır,
Uzaqlara yağış yağır.
"Ölən şəhər" dalda qalır.
Ağ buludlar qanad çalır –
Şahin görmüş durna kimi
Dəyişərək səmtlərini
Ötüb keçir üstümüzdən –
O, çəkinir deyən bizdən.

* * *

Qızıl-ala darvazatək
Qövsi-qüzeh düşdü yola.
Maşın qalxdı tövşüyərək.
Yollar dedi: Uğur ola...
Şofer dönüb mənə baxdı:
Əlli dörddə lap bu vaxtı, –
Bu maşında yanımdaca
Səməd Vurğun yol boyunca
Qaşlarını dartıb yaman
Düşünürdü zaman-zaman..."

Xatirələr nə dadlıdır,
Xəyal şahin qanadlıdır.
Sanıram ki, "Piyaz dağı"
Elə bilir Vurğun gəlir.
(Tutulubdur qaşqabağı,
Nədən belə yorğun gəlir?)
Şofer həmin o şoferdir,
Həmin məkan, həmin yerdir.
Qarlı zirvə nə soyuqdur,
Bu büsatda nəsə yoxdur.

* * *

Dağ başında qartal da var,
Pələng də var, maral da var.
Kəklik də var, daşa çəkir,
Sona da var, suya çökür.
Hər şey, hər şey yerindədir,
Bizi məyus edən nədir?
Sərçeşmələr yenə bumbuz,
Təkcə yoxdur Vurğunumuz.
O yolları mən gedirəm,
Nələr keçir ürəyimdən;
Ordubadı seyr edirəm –
Səməd gedən maşında mən.

Qəlbimdə el məhəbbəti
Dolaşıram vilayəti.
Şorurun göy tarlaları
Əl eləyir bizə sarı.
Könül burda gəlir dilə;
Vurğunumun gözləriylə
Seyr edirəm düzləri mən.
Üzüm dərən qızları mən.
"Arpa çayı" aşıb-daşır.
Dalğaları qucaqlaşır
Maşın gəlib çatır yenə
Düz "Sədərək kövşəninə".
Vurğun sanki maşındadır.
Lap inan ki, maşındadır.
Yoxsa, çöllər küsər bizdən.
Vurğun keçir qəlbimizdən.
Hər tərəfdən gəlir səda:
"Vurğunu da salır yada
Düz ilqarlı bizim dağlar".

Ürəyimdə böyük vüqar
Boylanıram zaman-zaman
Çöllərimə, düzlərimə.
Sanıram ki, kabinədən
Vurğun baxır gözlərimə...

* * *

Keçib "Xal-xal" meşəsini,
Eşidirik çay səsini.
Gül-çiçəyə batır maşın.
"Badamlı"ya çatır maşın.
"Şada çayı" körpüsündən.
Buyur! – deyir sənətkara.
Vurğun baxır sanki bu dəm,
"Pətəkli"də quzey qara...
"Badamlı"nın saf suları
Deyir: Vurğun, gözümdən iç!
Gəzib, qayıt bu dağları,
Şair Vurğun, gözümdən iç!
Doymamısan el deməkdən,
Bir az da qalx Şahbuza sən.
At üstə çıx "Qanlı göl"ə.
"Sərt dərə"də sən gecələ.
"Toğlu Qaya" toğlu kəsər,
"Plov təpə" plov paylar
"Çınqıllıya" get ki, küsər,
Su yerinə alov paylar.
"Yelli yurd"da olub çapar.
"Keçəl dağ"a salam apar.
"Kələfli dağ" tamaşadır.
"Gödək ömrü çox yaşadır".

...Düşünürəm, həmin yerdir,
Şofer həmin o şoferdir.
Niyə qəmli baxır Şahbuz?
Axı, yoxdur Vurğunumuz...

Xəyallarla mən gedirəm,
Aləm keçir ürəyimdən.
Təbiəti seyr edirəm
Səməd gedən maşında mən.

QƏLBİN SƏSİ

Üç illik bir eşqin hicrindəyəm mən,
Çırpınır ürəyim yaralı quş tək.
Sən ey əziz ana, mehriban Vətən,
Bizimdir şərəfli böyük gələcək...

Mərd oğlun silaha sarılmış bu gün
Yarır sərhədləri, yarır bəndləri.
Sənin namusunu qorumaq üçün
Keçir şəhərləri, keçir kəndləri.

Qəm yemə, səndən deyiləm cüda,
Ürəyim bağlıdır sənə əzəldən.
Yolunda canını etsə də fəda,
Oğlun yarağını buraxmaz əldən.

ONÜÇLƏR

Biz Naxçıvandan cəbhəyə gedəndə
on üç nəfərdik

Onüçlərim! Onüçlərim!
Bir geyindik şineli biz.
Bir and içdik al bayrağa,
Bir döyündü ürəyimiz.

Bir düşündük, bir danışdıq,
Bir sıçradıq düşmən üstə.
"Ana" dedik, "Vətən" dedik
Dar ayaqda, son nəfəsdə.

Dağılanda gecəyarı
Faşistlərin istehkamı,
Baxıb qarşı səngərlərə,
– Onüçlərdir! – dedi hamı.

Ay buludda gizləndimi,
Özümüzü yetirərdik,
Girib düşmən səngərinə,
Biz "dil" tutub gətirərdik.

Boş vaxtlarda şeir yazan,
Əldə qaşıq, dizdə qazan,
İştahayla körək yeyən,
Tüfəng silib, nəğmə deyən.

Evlərindən məktub alan,
Saz kökləyən, qarmon çalan
Kimdir? – sorsaydınız əgər,
– Onüçlərdir! – deyərdilər.

Onüçlərim! Onüçlərim!
Hardasınız indi görən?
Bu nisgilli sualımla
Sizi deyib gəzirəm mən.

Sərt döyüşlər, fırtınalar
Oldu bizim nəsibimiz.
Cəbhələrdə qoyub gəldik
Yarımızdan çoxunu biz.

Mən keçirəm, anan görür,
Baxammıram gözlərinə.
Baş qoyuram sənin kimi
Onun ana dizlərinə.

Sevgilin də baxır mənə,
Dinməsə də, mən duyuram,
– O hardadır? – sualını
Gözlərindən oxuyuram.

Neçənizin atasını
Atam bilib öpürəm mən...
...Sən onları öz qoynunda
Əziz saxla, gözəl Vətən!

Dəstəmizdən bir çoxunu
İtirsək də davada biz,
Yenə nikbin yaşayırıq
Bu torpaqda, havada biz!

Döyüşlərdə hər sübh ikən
Düşmən üstə hücum çəkən.
Gah sürünən, gah uzanan,
Mərdlik edib, ad qazanan,
Yarısından çoxu ölən,
Ölümün də üstə gülən
Kimdir?

Əgər soruşsanız,
Bir ağızdan siz hamınız,
Deyiniz ki, – Onüçlərdir,
Onüçlərdir! Onüçlərdir!

SƏNGƏRSİZ DÖYÜŞ

Yadımdan çıxmayır döyüş günləri,
Azı min səngərə sinə gərmişəm.
İllər dolansa da o vaxtdan bəri,
Elə bil cəbhəni dünən görmüşəm.

Elə cəbhələr ki, qanlı-qadalı,
Elə hücumlar ki, dastana sığmaz.
İndisə istərdim şair xəyalı
Səngərsiz döyüşdə səngisin bir az.

Göyə qaldırsa da insanı xəyal,
Torpağın üstədir onun ayağı.
Səhərdən hücuma keçib bir mahal,
Əllərdə silah yox, yarış bayrağı.

Şəfəqlər sayrışır, gülür dağ döşü,
Hər kəs bir xatirə gətirir yada.
Mən belə hücumu, belə döyüşü,
Düzü, görməmişəm hələ dünyada.

Bayraqlar sancılır qaralan şuma,
Əllərdə hərarət, üzlərdə gülüş.
Xalqımız inamla keçib hücuma,
Gedir hər tərəfdə səngərsiz döyüş!..

DÖYÜŞÇÜNÜN XƏYALI

Mən indi uzaqda... Cəbhələrdəyəm,
Qarşımda boz otlar, gen səhralar var...
Məni qərq edəndə uçqun xəyallar
Elə zənn edirəm sanki evdəyəm...
Anam xalı salmış, sən çay qoyursan
Çiçəkli eyvana baxır... Baxıram...
Çaydan dəmləyirsən, limon kəsirsən,
Mən isə köksünə bir gül taxıram.
Odlu baxışların çevrilir bəri.
O bir cüt ilahi, mavi gözləri –
Süzürəm... Od tutub alışır könül
Yasəmən kolunda bir sona bülbül –
Oxuyur... Mən isə siyah zülfünü
Sevib oxşayıram sakitanə, lal
Bu zaman bir mərmi düşür yaxına
Məni gül eyvandan ayırır xəyal...

Yenə cəbhə boyu əsir küləklər,
Görürəm kimsəsiz bir səngərdəyəm
Fikrimi çuğlamış təmiz diləklər
Mənsə uzaqlarda... cəbhələrdəyəm.

SƏRHƏDÇİNİN DÜŞÜNCƏLƏRİ

Ay göylərə keşik çəkir,
Mən – yurdumun növrağına.
Bu gecə də tək çıxmışam,
Xan Arazın qırağına.

Sərhədçiyəm, nəzərimdə
Ağır gəlib keçir axşam.
Bir yovşanı yana əyib,
Üzərində uzanmışam.

O sahil də, bu sahil də,
Yenə dərin sükutdadır.
Mən otların içindəyəm,
Ay da hələ buluddadır.

Boylanıram yan-yörəmə,
Nə səs gəlir, nə də hənir.
Bu boz payız gecəsində,
Təkcə Araz ləpələnir.

Düşünürəm, gecə keçir...
Yummasam da gözlərimi,
Mən xəyalən seyr edirəm,
Çöllərimi, düzlərimi...

...Elə bil ki, kəndimizin,
Üstündəki qızıl qaya.
Öz sehrli kölgəsini,
Sahil boyu salıb çaya.

Düşünürəm: əziz anam,
Ağbirçəkli qoca qarı.
Şir böyüdür bağçadakı,
Bizim körpə balaları.

Elə bil ki, dolaşıram,
Yaxın-uzaq yerləri mən.
Vətən eşqi bulaq kimi,
Axıb keçir ürəyimdən...

Üfüqlərdə dan ağarır,
Üz-gözümdə gümüş qırov.
Bir səs deyir: – Mürgü vurma,
İrəli bax, yuxunu qov!

Mən baxıram, boylanıram,
Sərhəd boyu sağa-sola.
Yaxın kəndin adamları,
Dəstə-dəstə çıxır yola.

Tarlalarda iş qaynayır,
Damarlarda zəhmət qanı.
De, kim sevməz canı kimi
Bu sevimli gülüstanı?

Neçə zavod tüstülənir,
Neçə bina qalxır göyə.
Düşünürəm: "Bir şərəfdir
Keşik çəkmək bu ölkəyə!"

XATİRƏ

Döyüş günləriydi... Axşam qabağı
Qəflətən döşümdən aldım bir yara
Yıxıldım, boyadı qanım torpağı,
Yerlər duman idi, üfüqlər qara.
Ayıldım bir zaman... "Axı hardayam?"
Gördüm ki,örtülü bir çadırdayam.
Çarpayı önündə durmuş bir pəri, .
Dikilmiş üzümə maral gözləri.
Xoş bir təbəssümlə bu vaxt astadan:
– Yaran incidirmi, – dedi, – ay oğlan?
Gücümü azacıq toplayaraq mən
Dedim: – Kim çıxarmış məni döyüşdən?
O şəfqət bacısı, o maral gözlü,
O xoş təbiətli, o güləz üzlü
Dedi ki, mən səni çıxartdım oğlan,
Tam başqa idi halın o zaman.

Ona ehtiramla dedim: – Ey gözəl,
Mənim xilaskarım sən imişsən, gəl,
Tutum əllərindən!
Gülümsəyərək
Görüşdü mənimlə o nazlı mələk.
Gecə qoca təbib döşümü yardı,
Mina qəlpəsini çəkib çıxartdı.
Sonra məlhəm qoydu, kəsildi qanım.
Azacıq dincəldi taqətsiz canım.

Günəş zər taxtına çıxdığı zaman
Yenə xilaskar qız girdi qapıdan.
Elə bil bir şəfa gəldi canıma.
O maral baxışlı gəlib yanıma
Dedi: – Günün aydın, necəsən, qardaş?
Bu gün gedəcəksən arxaya birbaş.
Orda sağalarsan, indi bahardır,
Qafqaz, doğrudan da, bir laləzardır...
Yenə ətir saçır güllər, lalələr,
Axır qayalardan gur şəlalələr.
Dedim: – Ay qız, yenə görüşərik biz;
Çünki bir məqsədlə vurur qəlbimiz...

Ötdü günlər, aylar... Sağalaraq mən
Döyüş cəbhəsinə getdim yenidən.
Sarıldım namusla, dostum silaha,
Lakin o gözləri görmədim daha...

Qanlı hərb qurtardı, qazandıq zəfər,
Güldü üzümüzə buludsuz səhər.
Keçdi aylar, illər...
Bir gün nagahdan
Xəzər sahilində seyr edən zaman
Mənə həyat verən o qızı gördüm,
Döşündə parlayan ulduzu gördüm.
O məni tanıdı "Yaralım" – deyə,
Görüş həyəcanlı...
Bu təntənəyə

Yanan qəndillərdən nur səpən Bakı,
Duydu ki, mehriban qucağındakı
Bir cüt zəfər adlı dan ulduzudur,
Öz qalib oğludur, qalib qızıdır!..

BIÇAQ YARASI

Bir şeir yazım deyə alıb kağız parası,
Mən yuxusuz qalıram bəzən bütün gecəni.
Əlimin üstündəki kiçik bıçaq yarası,
Gətirir xatirimə unudulmaz səhnəni:

...Odur, öz dəstəmizlə dumanlara bürünür,
Düşmən istehkamına sinə-sinə sürünür.
"Ura!" – deyib son kərə,
Tullanırıq səngərə!

Əlbəyaxa vuruşda ön tərəfdən bir yağı
Saplamaq istəyərkən sinəm-üstə bıçağı –
Mən cəldliklə bu zaman
Edib əlimi qalxan,
Naqanla sərib onu, ayaqlayıb keçirəm,
Yaralanmış əlimlə faşistləri biçirəm.

Artıq xeyli keçibdir, bax, o zamandan bəri,
Xəyalımdan getməmiş hələ döyüş illəri.
Düşmən kəsə bilmədi mənim bu sağ əlimi.
Bu gün min bir ilhamla tutaraq mən qələmi,
Düşmənə, yağılara, yada qarşı yazıram,
Qanlı imperializmə ölüm marşı yazıram!..

ONUN İSTƏYİ

– Söylə mənə, söylə mənə, uçuq səngər,
Hansı igid itirmişdir bu çantanı?
İndi harda ömür sürür həmin əsgər,
De, hardadır Vətənimin qəhrəmanı?

Səhər-səhər göy üfüqlər geyəndə al,
O da durub yollanarmı iş yerinə?
Maşınıyla qazıyaraq təzə kanal
Təbiəti mat qoyurmu hünərinə?

Yaşayırmı həmin əsgər? Yoxsa o da
Şəhid olub bu yerlərdə "Vətən" – deyə?
Yox, bu fikir ürəyimi salır oda,
Dilim yanır bu sözləri deyə-deyə.

Açan zaman bu çantanı yavaş-yavaş,
Rəngi solmuş bir varağa nəzər saldım:
"...Bu qaranlıq səngərlərin üstündə kaş,
Şəhər salıb, çilçıraqlar yandıraydım!"

Ah, mən indi duydum ki, bax, bu çantada
Bir mühəndis ürəyinin eşqi varmış.
Mən duydum ki, saf əməllər düşsə oda,
Yer altına gömülsə də, yaşayarmış.

Dedim: gecə hücum vaxtı bu çantanı,
Həmən əsgər bəlkə burda itirmişdir?
Dedim: gözəl arzuları bu cavanı,
Bəlkə yenə Kaxovkaya gətirmişdir?

İndi onun uzandığı səngərlərin
Üzərində kanal çəkib, gül əkirik;
Boz çöllərin simasını dəyişərək.
Evlər tikir, bağlar salır, yol çəkirik.

Bəlkə o da bizim kimi erkən durur,
Maşınını Kaxovkada işə salır?
Bəlkə o da plan çəkir, bəndlər qurur,
Şoranlıqlar qucağında meşə salır?

Mən sevirəm o cavanın arzusunu,
O arzuda gülümsəyir əbədiyyət.
Gözəl dostum, yaxşı bil ki, sən də bunu,
Xəyalının meyvəsidir bu həqiqət.

AXI NECƏ OLDU Kİ...

Hərdən nağıl eylədikcə mən döyüş illərimi,
Sevgilim mehribanca oxşayıb tellərimi
Soruşur: – Bircə söylə, dörd il yağışda, qarda
Gah nəmli səngərlərdə, gah qanlı səhralarda
Şaxtalar çəkən zaman şəmşiri qəsdinizə
Axı necə olurdu soyuq dəymirdi sizə? –
Deyirəm:, – Ey sevgilim, bunu söyləyəm gərək,
tufana, çənə qarşı,
bir də düşmənə qarşı,
Canımız da bərk idi o vaxt iradəmiz tək!..

EVCİYƏZƏ OXŞADI

Uşaqlıqda nə rayon, nə də şəhər tanıdım,
Şəkərabad kəndini böyük aləm sanırdım.
Onun hər bir koması görünürdü çox uca,
Yorulurdum gedəndə bu başdan o başacan...

İllər keçdi, böyüdük, oxumaq üçün hərə
Yollandı bir şəhərə...
Müharibə başlandı... Silaha sarılıb mən,
Sinəmi səngər edib, keçdim döyüşmələrdən,
Moskvanı, Kiyevi, ən böyük şəhərləri
Görüb, min bir zəfərlə yenə qayıtdım geri.
Kəndimizə çatarkən evciyəzə oxşadı,
Gördüm ki, çox gülüncmüş uşaqlıq etiqadı.
Qollarımı çırmayıb dedim: – Sevimli
dostlar!
Gəlin qurub yaradaq, nə qədər gücümüz var.
Qoy sevimli kəndimiz yar-yaraşıqlı olsun,
Gecəsi də gündüz tək nurlu, işıqlı olsun!..

NAXÇIVANIN DUZU, QIZI, QARPIZI...

Haça dağdan günəş qalxır, baxıram,
Yaylaqların sinəsinə qalxıram.
Tunc zirvələr sıx dumana bürünür,
Boz sürülər yamaclarda sürünür.
Gəlin gəzək, bu da yaxşı güzərdir,
Mələşsə də kərə qoyun, ağ quzu,
Məncə bundan daha xoşdur, gözəldir,
Naxçıvanın duzu, qızı, qarpızı.

Bura mənim öz yurdumdur, elimdir,
İlk baharın məxmər teli telimdir.
Xəzinədir qara torpaq sinəm tək,
Qaranquşlar nəğmə deyir gülərək,
Dad versə də arx üstündə arabir –
Pendir-çörək, yanında da qarpızı;
Ancaq bundan düzü min qat gözəldir
Naxçıvanın duzu, qızı, qarpızı.

Yayı burda olmusanmı, desənə –
Gün qalxanda günortanın yerinə?
Boz düzlərdə ilqım ləpə vuranda,
Xan çinarın kölgəsində bu anda
Bəd olmayır, əşi, aləm düzəldir –
Ağ ayrana sən qatanda sal buzu,
Bəs atalar necə deyib? – Gözəldir
Naxçıvanın duzu, qızı, qarpızı.

Qaş qaralıb hamı kəndə döndümü,
Üfüqdəki son şəfəqlər söndümü –
Yanmır zəif işartılı lampalar,
İndi burda min kəhkəşan nuru var,
Əməlimiz min qığılcım közərdir,
Eşqimizlə yanır yerin ulduzu.
Ancaq bundan sanmayaq az gözəldir,
Naxçıvanın duzu, qızı, qarpızı!..

Dilim dillər tacıdır

ANA DİLİM

Dilim, –
su kimi büllur,
bal kimi şirindir
Elim, –
Vətən adlı
ilk sevgilimdir.
Mən elimin
ürəyi min bir nəğməli oğluyam.
Ürəyimdən bir səs keçir:
– Əqidəmdə doğruyam!..
Dilim, –
dillər tacı olsun deyirəm.
Öz dilini sevməyənlər,
lal olub, yerə girsin,
bir kəlmə söz möhtacı olsun, deyirəm.
El mənim,
Mən də elin.
Qəlbimdəki hər telin,
Səsi sazımda gülür.
Dilim, –
bir dağ çeşməsidir,
ürəyimdən dodağıma süzülür...
O çeşmənin gözünü
Gözüm qədər sevirəm.
Onun hər damlasını,
özüm qədər sevirəm.
Çınqıllı daşlarını,
bir mirvari sanıb mən,
Kaş boynuma düzəydim,
can Vətən!..

Mən qürurumu
qürurlara
qürur saya bilərəm.
Körpə bir uşaq
Beşikdən baş qaldırıb
"Ana" – desə,
Onu bağrıma basıb gülərəm.
Çünki o, öz dilimdir,
Ana dilim.
Pərvaz et hər yana, dilim!
mən qəlbi
qəlbimdə döyünənləri,
Mənim kimi
öz millətiylə öyünənləri,
Dilimi sevənləri sevirəm.
Hər kim nə deyir-desin,
elimi sevənləri sevirəm.
O el, –
anadan adsız doğulub,
ada-şöhrətə çatdığım,
ilk şərimi yaratdığım
Azərbaycan torpağıdır!
O dil, –
Şərqin
Min bir nəğməli dodağıdır.
Dodaq dedim, –
O, ürək tərcümanıdır.
ürəksizsə nəğmə olmaz.
Dilim, –
Nərgiz gülü kimidir,
Boranı da düşsə solmaz.
Çünki bu dil,
Baharıstan torpağımda,
atmış rişə.

Bu dil, –
O vaxt məhv olar ki,
Dünya qopa, Günəş düşə.

Yoxsa heç bir saxta qürur,
qürurumа düşməz yaxın.
Nəğmə deyin axın-axın!..
Bu nəğmələr
ürəklərə axıb dolsun.
Bizim könül nəğməmizsə,
"Azərbaycan himni" olsun!..

ANA SƏSİ

Gün batdı, şər qarışdı, yağdı qar,
Gör necə də ələndi.
Sahil boyu ucalan buruqlar
Ağ geyib cərgələndi...
Xəzri dənizdə yatdı... dəniz lal,
Sükut qondu hər yana.
Geyinib çıxdı evdən başda şal
On uşaqlı bir ana.
Televizor önündə uşaqlar
Durub baxdı, ha baxdı.
– Bəs niyə çıxmır anam, nə sirr var.
Gör gedəli havaxtdı!
Zilləyərək gözünü sonbeşik
Bir tərəfdə durdu tək.
Nə sakitdir bu axşam ev-eşik,
Ana çıxış edəcək...
Birinə söz verildi, yox, bu da,
Yox, bu da anam deyil.
O, işləyir deyəsən buruqda,
Orden alıbdır bu il.
Çıxdı başqa bir qadın, o kimdir?
Əynində ağ xalat var.
Körpələr tez tanıdı, həkimdi,
Əllərində həyat var.
Çıxdı iki gəlin də dalbadal,
Biri xalça toxudu.